# Azərbaycanda cari vəziyyət

01 aprel 2020-ci il

Koronavirus infeksiyası (COVID-19) dünya ölkələri arasında sürətlə yayılmaqda davam edir. Virusun uzun inkubasiya dövrünün olması, yayılma sürəti və vaksinin hələ də tapılmaması dövlətləri daha ciddi tədbirlər görməyə məcbur edir.

Hazırda bir çox ölkələrdə intensiv qabaqlayıcı tədbirlər həyata keçirilməsinə baxmayaraq, qısa müddətdə infeksiyanın yayılmasının qarşısını almaq mümkün olmamışdır.

Ümumdünya Səhiyyə Təşkilatının 31 mart 2020-ci il tarixinə olan məlumata görə, dünyanın 204 ölkəsində 697,244 nəfər koronavirusa yoluxub və xəstəlikdən 33,257 nəfər vəfat edib. Xəstəliyin əhatə dairəsi, yoluxma tendensiyası genişlənməkdədir. Virusa qarşı profilaktik tədbirlər çərçivəsində bir çox dövlətlər risk ölkələri ilə sərhədləri bağlayır, avia reysləri təxirə salır.

31 mart 2020-ci il tarixində Azərbaycan Respublikasında 24 yeni  koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb. Hazırda aktiv koronavirus xəstələrinin sayı 298 nəfərdir, onlardan 15 pasiyentin vəziyyəti orta ağır, 11 isə ağırdır. Bu günədək Azərbaycanda ümumi yoluxanların sayı 267-dir, onlardan 26 nəfəri sağalmışdır. Koronavirusa yoluxmuşlar arasında 5 ölüm faktı qeydə alınıb.

Koronavirusa yoluxma faktı təsdiqlənmiş pasiyentlər xüsusi rejimli xəstəxanalara yerləşdirilir və onların davamlı müşahidəsi təmin edilir.

Koronavirus infeksiyasının qlobal pandemiya elan olunduğunu və virusun geniş yayılma tendensiyasının davam etdiyini nəzərə alaraq, bir daha vətəndaşlarımızı diqqətli olmağa, Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə riayət etməyə, əhalinin sağlamlığının etibarlı qorunması və təhlükəsizliyinin təmin edilməsi məqsədilə Nazirlər Kabineti yanında Operativ Qərargahın qəbul etdiyi qərarları və müəyyənləşdirdiyi qaydaları tam yerinə yetirmək önəmlidir.

© 2020 Nazirlər Kabineti yanında Operativ Qərargah | Bütün hüquqlar qorunur